

ƏLƏSGƏR TALIBOĞLU

## MƏNİM TALEYİMƏ ÜÇ ALMA DÜŞDÜ

Mənim taleyimə üç alma düşdü,
İlki Kərimbəyli, sonrası Civə.
Axaməd olubdu sonuncusu bax,
Yanıram üç közdə mən sevə-sevə...

Seçmədim heç zaman biri-birindən,
Oldu da hər üçü qəlbimin görkü.
Yurd saldı köksümdə şirin duyğular,
Üzdü ömür boyu həsrətin yükü.

Birisi dünyaya ilk göz açdığım,
İsti ağuşunda doğulduğum kənd.
Biri sinəsində məhək daşı tək,
Hər an bişə-bişə yoğrulduğum kənd.

Birisi yağının əsir aldığı,
Gah yıxıla-dura yeridiyim kənd.
Anamın dilini öyrənmək üçün
İlk dəfə məktəbə yürüdüyüm kənd.

Hər biri hər türlü sevgiyə layiq,
Hər biri doğmadı həyatda mənə.
Hansı olur-olsun, fərq eyləməz ki...
Doğmadı təri də, boyat da mənə.

Mənim taleyimə üç alma düşdü,
İlki Kərimbəyli, sonrası Civə.
Axaməd olubdu, bax, sonuncusu,
Yanıram üç közdə mən sevə-sevə...

***06.02.2020***

## SIRADAN BİR İNSANAM

Sanma məni çürümüş
atılacaq bir daşam.
Səhralarda dolaşan
qurda, quşa yoldaşam.

Sanma məni saf suyu
sovulmuş bir bulağam.
Gözdən azca mayıfam,
bir ayağı çolağam.

Sanma məni qisməti
qapanan bir qapıyam.
Kağ etməkçün yarımaz
bir toxanın sapıyam.

Nə deyim eh... doğrusu,
sıradan bir insanam.
Yurduna şan gətirən
xoş imzalı ad-sanam.

***05.07.2019***

## VƏTƏN

Bir yüksələn bayraqdır,
Ən müqəddəs torpaqdır.
Tanrı verən bir haqdır -
Vətən.

Baş qoyduğum bir daşdır,
Ana, bacı, qardaşdır.
Mənlə bağrıbadaşdır -
Vətən.

Tarixi ilməlidir,
Sevdikcə sevməlidir.
Uğrunda ölməlidir -
Vətən.

Bax, baldan da şirindir,
Sevdası nə dərindir.
Öyünməli yerimdir -
Vətən.

***15.08.2019***

# DAĞLAR GÖRDÜM

Dağlar gördüm qırçın-qırçın,
Tanrı vuran boyadaydı.
Dağlar gördüm laçın-laçın,
Qız ismətdə, həyadaydı...

Dağlar gördüm şax vüqarlı,
Çökdüm həmən önündəcə.
Dağlar gördüm xoş ilqarlı,
Ömrün ən dar günündəcə...

Bu dağlardan aldı sözüm
Öz gücünü, öz rəngini.
Keşkə təsvir edə bilsəm,
Bu dağların ahəngini.

***23.02.2020,***
***Naxçıvan şəhəri***

# SEVDALANDIM

Bir şeir yazdım
Aylı-ulduzlu,
aydın bu gecəyə.
İçimdəki duyğular
selə dönüb
axa-axa dörd bir yana-
evə-eşiyə... küçəyə...

Bir şeir yazdım dan yerinə
üzə-üzə
bu gölə dönən
duyğuların ağuşunda
ən dərinə...

Bir şeir yazdım
üfüqdə doğan Günəşə.
Könlümə qata-qata
yepyeni nəşə...

Sevdalandım gecəyə,
sevdalandım dan yerinə,
sevdalandım Günəşə...
bəlkə bu sevda
sevincə təşnə
düzənimi dəyişə...

***30.11.2019***

# HƏR GÜNÜM AXTARIŞDA

Mən özümdən özümə
Elə gedib-gələnəm.
Yorulmadan yol yortub
Belə gedib-gələnəm.

Dönərək bir yumağa,
Yamaq olub yamağa.
Vurmaqçün rəng damağa,
Lilə gedib-gələnəm.

İnanmırsan, get də sor,
Yor... özünü ha da yor...
Götürməyə çınqı qor,
Külə gedib-gələnəm.

Hər günüm axtarışda,
Keçir sözlə yarışda.
Atdığım hər qarışda
Lələ gedib-gələnəm.

***01.07.2019***

# SÖZÜ TUTUB GEDİRƏM

İçimdə qarlı qışdı,
Yazı tutub gedirəm.
Hər gözəli sevmədim,
Nazı tutub gedirəm.

İmzam bəlli izindən,
Qəlb isinir közündən.
Nur ələnir sözümdən,
Sözü tutub gedirəm.

Şux qələmim əlimdə,
Qaynağımdı selim də...
Şən nəğmələr dilimdə,
Sazı tutub gedirəm.

Talıboğlu, bıxmadım,
Heç vaxt könül yıxmadım.
Düzdən kənar çıxmadım,
Düzü tutub gedirəm.

***30.07.2019***

# YAŞAMAQDA NƏ VARSA...

Nə açılan
səhərlərimin sayı bəlli...
nə zülmət gecələrimin,
nə də...
yorub-yortacağım küçələri-
min...
Gəl ki...
yaşamaqda nə varsa,
hər gün
Günəşi salamlaya-salamlaya
bu dünyadan
yapışmışam bərk-bərk,
dörd əlli...

***04.07.2019***

# DÜZƏNSİZ DUYĞULAR

Nə tapındığım bir dinim oldu,
nə də tanrısız bir günüm...
Əlim havada,
ağzım duada,
Ömr edirəm dünyada...

***

Şeir də övlad kimidir:
fərsizi... fərlisi,
uğursuzu... uğurlusu.
Övladlarımdan yarımadm...
bəlkə şeirlərimdən
yarıyam doğrusu...

***08.07.2019***

***

Könlümdə duyğularım
çalxalanan bir ümman.
Düşüncələrim sahilsizdir.
Bir limanı yox ki...
lövbərini atmağa...

***

Başımın üstündə
buludlar çaxnaşmada.
Göylərsə eyni ahəndə...

***

Mənim öz günəşim,
öz ayım vardır.
Sənin isə nəyin olduğunu
haradan bilim ki?..

***

Sevgisiz ürək
dənsiz dəyirmandır.
Dənsiz dəyirman sevgisiz ürək...

***15.07.2019***

***

Kəfən-bələnəcəyim bələk,
məzar-uyuyacağım beşik,
torpaq isə əbədi yorğanımdır.

***

Qoşa doğuldum dərdlə.
Ümmanların
çəkə bilməyəci dərdi
ürəyim çəkdi.

***

Yuxularıma yağmayan qar
artıq yağır ömrümə.
Odur ki....
üşüyürəm hər axşam-sabah.

***

Bir uşaq təbəssümündən
asmışam özümü.
Əgər öləcəmsə...
qoy, o uşaq olsun qatilim.

***13.03.2021***

***

Ölmək asan olsa da,
yaşamaq ondan
qat-qat çətindir.
Kim ki, bu dünyada
ayaqda dura bilirsə,
demək ki... ən mətindir.

***

Lallar çox zaman
baxışları ilə danışar,
xalçalar naxışları ilə....

***

Dörd divardı,
bir mən....
və bir də lal duyğularım....
Nə yaxşı ki....
yalqız deyiləm.

***

Əgər məni
yaxından tanımaq istəsəniz,
kimsədən soruşmayın.
şeirlərimdə axtarın....

***06.05.2021***

# *TORPAQ MƏNİ ÇAĞIRIR*

*İlyas Əfəndi Vəfalıya*

Öz doğma anam kimi,
Torpaq məni çağırır.
Bir nazlı sonam kimi,
Torpaq məni çağırır.

Laylamı çalan hazır,
Kəfənlik alan hazır.
Dostlarım nalan... hazır...
Torpaq məni çağırır.

Qəmi acı olsa da,
Dəmi acı olsa da...
Cəmi acı olsa da,
Torpaq məni çağırır.

Hayında gecə-gündüz,
Hayında dərə, ya düz..
Hayında əlli, ya yüz,
Torpaq məni çağırır.

Çağırır ağuşuna,
Öz ulu koğuşuna.
Salıb dərd yağışına,
Torpaq məni çağırır.

Talıboğlu, nə xoş yön,
Gəl, istəmə özgə don.
Bu da axır.. bu da son
Torpaq məni çağırır.

***15.10.2019***

# *ÜÇBİRLƏR*

Bu Aylı, ulduzlu
füsunkar qış gecəsinin
öz hüsnü var qar üzərində -
rəsmini çəkə bilsən...

***

Dan yerinin
məsum qızartısına bənzər
körpə təbəssümü -
xöşbəxtliyə açardır.

***

Həqiqətin bir rəngi var-
boyadan uzaqdı,
yalansa rəngarəng-
anlayana daha xoşdur.

***

Sevmirsən sevmə,
özün bilərsən...
heç olmasa, nifrət etmə -
nifrət kəskin bıçaqdır.

***

Dörd divardı,
bir də mən,
bir də... daşlaşan lal sükut -
tənhalıq yağır içimə.

***

Bir qadın dayanmışdı
məndən aralıda,
günəşə bənzər -
şəfəq saçırdı ruhuma...

***

Bu yaz da süst keçdi,
könlümü ovutmadı ki...
elə əvvəlkilərtək -
gözümdə qaldı gözlədiklərim.

***06.08.2019***